# Hörmətli Adnan Oktarın yeni şərhləri (14 dekabr 2014; 23:00)

## DÜNYANIN ƏN ƏHƏMİYYƏTLİ BƏZƏYİ QADINDIR

Xanımların əylənməsini qadağan etmək dünyadakı həyati bir gözəlliyi kökündən qoparmaq deməkdir. Dünyanın ən əhəmiyyətli bəzəyi qadındır. Qadın əylənirsə, xoşbəxtdirsə, şəndirsə, gözəlliyini göstərə bilirsə gözəl olar. Sən qadını qoru, o da azad olsun. Adam haşa özünün heyvan olduğunu söyləyir, heyvan olduğu üçün onun da qorunmağa möhtac olduğunu söyləyir. Sən heyvanlıqdan çıxsan, o da rahat yaşasa olmurmu? Təbii ki, özünün heyvan olduğunu iddia edir. "Burada təhlükəli bir heyvan var. Onlara da təhlükə yaranar. Onun üçün tamamilə təcrid olsunlar. Gülməsin, oynamasın, sevinməsin". Niyə? "Heyvan gözləyir. Qapar" –deyir. Səni heyvanlıqdan çıxaraq sən də insana bənzə, qadın da azadlıq içində yaşasın. Sən heyvansansa o niyə azadlığını itirməlidir. Heyvana azadlıq deyil, insana azadlıq verilməlidir. Elə deyilmi? O heyvanlıq azadlığı istəyir. Heyvan olaraq qalmaq istəyir. İnsan ol, o da azad şəkildə yaşasın. Bu, bu qədər sadə bir düsturdur.

## QADIN DA, KİŞİ DƏ İMANI, İFFƏTİ İTİRDİKDƏ MƏHV OLAR

Kişinin də qadının da ruhi və bədən cəhətdən güclü olması iffət və imanları ilə əlaqəlidir. Çiçəyin suyunu vermədikdə nə olar? Günəşin altında bir anda qovrularaq məhv olar. Qadın da kişi də elədir. İmanı, iffəti getdisə məhv olar.

Qız uşağı çiçək kimidir. İmanı olmadan bir qız uşağının sağlam qalması mümkün deyil. Çünki insan zəif bir varlıqdır. İnsan imanla ruhən sağlam ola bilir, imanı getdisə onsuz da xəstə olur, hətta bir çoxu intihara meyilli olur. Davamlı ağlında intihar olur, Allah qoruyur. Əsəb keçirir. Sənin incə və zərif bir bədənin var, bu hara qədər davam edər? Hər şeyinə təsir edir. Gedir siqaret çəkir, içki içir, bir şeylər edir. Özünü həlak edəcək nə lazımdırsa edir. Bir gənc qız imanı ilə, dərin imanı ilə, sevgisi ilə, nuru ilə yaşamış olsa, sağlamlıq, səhhət, ağıllı bir tərzdə yetişdirilmiş olsa, bənövşə kimi olar. Bənövşə kimi, onlar da çox diri və çox gözəl olar. Amma bunu etmirlər, "imansız olsam nə olacaq?" –deyir. İnsan mənəvi cəhətdən ölər. Mənəvi cəhətdən öldükdə maddə olaraq da ölmüş olur.

https://www.harunyahya.info/az/meqaleler/hormetli-adnan-oktarin-yeni-serhleri-14-dekabr-2014-2300